შეფასებისა და გამოცდების ეროვნული ცენტრი



# Musiqi üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir: I Dinləmə hissəsi; II Dinlənilən materialdan kənar təqdim olunmuş qapalı və açıq tapşırıqlar.

Dinləmə hissəsi üçün müəyyən vaxt ayrılmışdır. Testin elektron bukletində hər tapşırığın müvafiq təlimatında tapşırığa əməl etmək üçün konkret vaxt göstərilmişdir.

Testin II hissəsinin tapşırıqlarında qalan vaxtı istədiyiniz kimi bölüşdürün.

Testin maksimal xalı – 60-dır.

Testə əməl etmək üçün 5 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

**Dinləyişin I hissəsi**

**Dinləyişin hissəsi on tapşırığı birləşdirir.**

**1-6-cı tapşırıqlar.**

**Birinci altı tapşırığa əməl edilməsində musiqi fraqmentlərinin dinlənilməsi və müvafiq suallara cavab verilməsi nəzərdə tutulur. Hər bir tapşırığa bir musiqi fraqmenti və iki sual daxildir. Hər sualı ehtimal olunan dörd cavab müşayiət edir. Bir düzgün cavabı seçin və cavablar vərəqində X-lə işarə edin.**

**Hər bir musiqi fraqmentini iki dəfə dinləyin. Birinci və ikinci dinləyiş arasında interval 20 saniyədir.**

**Hər bir tapşırığa daxil olan musiqi fraqmenti dinlənilənədək tapşırığın suallarını oxumağınız üçün sizə 10 saniyə vaxt verilir.**

**Tapşırıqlar sonrakı səhifələrdə verilib.**

**Tapşırıq 1.**

**Birinci musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (1.1. və 1.2.):**

**1.1. Hansı guşənin mahnısıdır?**

ა) Svaneti

ბ) Kaxeti

გ) Quriya

დ) Sameqrelo

**1.2. Mahnı hansı janrdadır?**

ა) Sevgi

ბ) Rəqs

გ) Əmək

დ) Müalicəvi

**Tapşırıq 2.**

**İkinci musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (2.1. və 2.2.):**

**2.1. Əsər hansı janrdadır?**

ა) Simfoniya

ბ) Kvartet

გ) Simfonik uvertüra

დ) Konsert

**2.2. Musiqinin müəllifi kimdir?**

ა) Otar Taktakişvili

ბ) Sulxan Sinsadze

გ) Aleksi Maçavariani

დ) Andria Balançivadze

**Tapşırıq 3.**

**Üçüncü musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (3.1. və 3.2.):**

**3.1. Fraqment hansı operadan səslənir?**

ა) „Turandot“

ბ) „Karmen“

გ) „Loenqrin“

დ) „Riqoletto“

**3.2. Solistin partiyasının hansı səs ifa edir?**

ა) Alt

ბ) Soprano

გ) Koloratik Soprano

დ) Metso-soprano

**Tapşırıq 4.**

**Dördüncü musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (4.1. və 4.2.):**

**4.1. Hansı janrda əsərin fraqmentidir?**

ა) Opera

ბ) Balet

გ) Somfoniya

დ) Operetta

**4.2. Hansı heyət ifa edir?**

ა) Simfonik orkestr

ბ) Kamera orkestri

გ) Nəfəsli çalğı orkestri

დ) İnstrumental-kamera ansamblı

**Tapşırıq 5.**

**Beşinci musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (5.1. və 5.2.):**

**5.1. Hansı dövrün musiqisi səslənir?**

ა) Barokko

ბ) Renessans

გ) Orta əsrlər

დ) XIX əsr

**5.2. Hansı musiqi quruluşudur?**

ა) Heterofoniya

ბ) Polifoniya

გ) Homofoniya

დ) Monodiya

**Tapşırıq 6.**

**Altıncı musiqi fraqmentini dinləməzdən əvvəl tapşırıqla tanış olun (6.1. və 6.2.):**

**6.1. Hansı üslublu musiqi səslənir?**

ა) Neoklassisizm

ბ) İmpressionizm

გ) Klassisizm

დ) Ekspressionizm

**6.2. Musiqinin müəllifi kimdir?**

ა) Bela Bartok

ბ) Arnold Şomberq

გ) İqor Stravinski

დ) Sergey Prokofyev

**Tapşırıq 7.**

**<u>Təlimat</u>. Musiqi fraqmentini dinləyin; not yazısında verilmiş dörd variantdan dinlədiyiniz qammanın müvafiq variantını seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin.**

**Qammanı iki dəfə dinləyin.**

**Not yazısına yenidən nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:**

ა)


ბ)


გ)


დ)


**Tapşırıq 8.**

**<u>Təlimat</u>. Musiqi fraqmentini dinləyin; not yazısında verilmiş dörd variantdan dinlədiyiniz ritmik fiqurasiyanın müvafiq variantını  seçin və cavablar vərəqində düzgün cavabı X işarəsi ilə qeyd edin.**

**Ritmik fiqurasiyanı iki dəfə dinləyin.**

**Not yazısına yenidən nəzər salmaq üçün dinləyişdən əvvəl sizə 5 saniyə vaxt verilir:**

ა)



ბ)



გ)



დ)



**Tapşırıq 9.**

**Musiqi imlası**

**Təlimat. Melodiyanı dinləyin və  not sistemində yazın. Melodiya birsəsli, səkkiztaktlı və birtonallıdır. Dinləmək və yazmaq üçün sizə 15 dəqiqə vaxt verilir. Melodiyanı audioyazıda dörd dəfə dinləyin; hər sonrakı dinləyiş arasında 2 dəqiqə interval vardı.**

***Yazılmış melodiyanı cavablar vərəqəsindəki verilmiş  not sisteminə keşirin.***

**Tapşırıq 10.**

**Musiqi əsərinin təhlili**

**Təlimat. Tapşırıqda musiqi əsərinin verilən suallar üzrə audio və not yazıları əsasında təhlili nəzərdə tutulur. Musiqi əsərinin yazısını üç dəfə dinləyin; yazını dinləməzdən əvvəl tapşırığın suallarını bir daha nəzərdən keçirmək üçün sizə 30 saniyə vaxt verilir.**

**(Suallar sonrakı səhifədə verilib).**

1. Verilmiş fraqment hansı musiqi janrına məxsusdur? Fikrinizi əsaslandırın.

2. Müəyyən edin:

a) 1-dən 16-cı takt da daxil olmaqla musiqi fraqmentinin formasını;

b) Dinlənilmiş musiqi fraqmentinin başlanğıc tonallığı;

c) 13-dən 16-cı takt da daxil olmaqla verilən kadansa daxil olan akkordların harmonik funksiyaları.

3. Musiqi fraqmentinin bədii-emosional cəhətini, onun dəyişiklikləri ilə birlikdə səciyyələndirin; Musiqini əks etdirmə formalarından hansı xüsusiyyətlərin (hansı formalı melodiya, ritm, temp, tembr, harmoniya, qamma-tonallıq, faktura və s.) musiqi fraqmentinin bədii məzmununu yaratmaq üçün xüsusilə mühüm olduğunu təhlil və qısaca təsvir edin.

4. Dinlənilmiş fraqmentin musiqi səciyyəsi əsasında əsərin yaradıldığı dövrü, cərəyanı və bəstəkarın kimliyini müəyyən edin.

5. Əsərin tarixi-mədəni kontekstini müzakirə edin (bəstəkarın yaradıcılığını qısaca səciyyələndirin və onun yaradıcılığında bu janrın əhəmiyyətini göstərin; əsərin musiqi-bədii kontekstinin özünəməxsusluğunu qeyd edin). **(Əsərin not yazısı sonrakı səhifələrdə verilib)**


Passionato.
f
Ped.
sf
ff
mf




sf
sf
sf
sf
ff


Agitato.
f
sf
Ped.


sf
sf
sf
ritard.
sf
ritenuto
a tempo
D.S.


Con affetto.
ff
Piu presto molto espressivo.
p


Tempo I.
ff
f
ff

**II  hissə**

**Tapşırıqlar 11-18.**

**Təlimat. Cavablar vərəqində düzgün cavabın müvafiq xanasını X işarəsi ilə göstərin.**

**Tapşırıq 11.**

**Opera jansı Avropanın hansı şəhərində yaradılmışdır?**

ა) Paris

ბ) Florensiya

გ) Vena

დ) Barselona

**Tapşırıq 12.**

**Musiqi romantizminin üslubuna hansı səciyyə *uyğun deyildir?***

ა) Musiqinin və poeziyanın bədii növlərinin sintezi

ბ) Lirik başlanğıcın üstünlüyü

გ) İnstrumental tembrin personifikasiyası

დ) Qəhrəmanlıq-dramatik simfonizm

**Tapşırıq 13.**

**Kamil Sen-Sansın “Heyvanların karnavalı” əsəri hansı janrda yazılmışdır?**

ა) Simfoniya

ბ) Süita

გ) Simfonik uvertüra

დ) Konsert

**Tapşırıq 14.**

**Asta tempi əks etdirən musiqi termini hansıdır?**

ა) Moderato

ბ) Adagio

გ) Allegro

დ) Presto

**Tapşırıq 15.**

**Spiriçuelsin mövzusu tətbiq edilmiş somfonik əsər hansıdır?**

ა) Qustav Malerin 1№-li „Titan“ simfoniyası

ბ) Klod Debyusun „Noktürinqlər“ simfonik triftixi

გ) Antonin Dvorjakın 5№-li „Yeni dünyadan“ simfoniyası

დ) Moris Ravelin „Bolero“ simfonik pyesi

**Tapşırıq 16.**

**Edvard Qriqin “Per Günt” simfonik süitasına hansı proqram başlığı *uyğun deyildir?***

ა) “Anitranın rəqsi“

ბ) „Dağ çarının mağarasında“

გ) „Sirinozlar“

დ) „Səhər“

**Tapşırıq 17.**

**Gürcü xeyriyyəçisi David Saracişviliyə hansı xidmət *uyğun deyildir?***

ა) Yeni başlayan gürcü bəstəkarlarının və ifaçılarının təhsilinin maliyyələşdirilməsi

ბ) Tbilisi Dövlət Konservatoriyasının təsis edilməsi

გ) İstedadlı musiqiçiləri aşkar etmək üçün komitə yaradılması

დ) Tbilisi musiqi məktəbinin təsis edilməsində iştirak

**Tapşırıq 18.**

**Oratoriya nədir?**

ა) Vokal-instrumental əsərlər, libretto, kostyumlar və dramatik tamaşalarla

ბ) Zəngulə silsiləsi, vokalistlər, xor və orkestr üçün solist

გ) İsa peyğəmbərin ehtirasları təsvir edilən geniş vokal-instrumental əsərlər

დ) Dramatik tamaşadan kənar dini yaxud dünyəvi tarixi əks etdirən vokal-instrumental əsərlər

**19 – 22 tapşırıqlar.**
***Notdan qurma***

**<u>Təlimat</u>. <u>La</u> notundan verilmiş interval, üç və dördsəsli akkordlar, qamma qurun və cavablar vərəqində verilmiş not sisteminə yazın:**

**19. Kiçik tersiya;**

**20. Major kvartsekstakord;**

**21. Kiçik major septakord;**

**22. Melodik minor.**

**Tapşırıqlar 23 – 25.**

***Uyğunluğun müəyyən edilməsi***

**Təlimat. Tapşırıqda sadalanmanın iki sütunu verilmişdir. Onların arasında uyğunluğu müəyyən edin. Sol sütunun hər bir göstəricisi (ა, ბ, გ) sağ sütunun yalnız bir göstəricisinə uyğundur (1, 2, 3, 4, 5). Hər bir uyğunluğu X işarəsi ilə göstərin.**

**Tapşırıq 23.**

**İtalyan terminologiyası ilə gürcü tərcüməsi arasında uyğunluğunu müəyyən edin:**

| | |
|---|---|
| ა) Agitato | 1) İncə |
| ბ) Cantabile | 2) Yüngül |
| გ) Maestoso | 3) Həyəcanlı |
| | 4) Oxunaqlı |
| | 5) Təkəbbürlü |

**Tapşırıq 24.**

**24. Gürcü xalq mahnıları və Gürcüstanın guşələri arasında uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| ა) „Lile“ | 1) Quriya |
| ბ) „Xasanbequra“ | 2) Sameqrelo |
| გ) „Çakrulo“ | 3) Svaneti |
| | 4) Kaxeti |
| | 5) İmereti |

**Tapşırıq 25.**

**Musiqi cərəyanları və bəstəkarlar arasında uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| ა) İmpressionizm | 1) Volfqanq Amadeus Motsart |
| ბ) Klassisizm | 2) Friderik Şopen |
| გ) Romantizm | 3) İanis Ksenakis |
| | 4) Klod Debyus |
| | 5) İohan Sebastyan Bax |

**Tapşırıqlar 26 – 28.**

***„Düzgündür-səhvdir“***

**Təlimat. Verilən müddəanın düzgün yaxud səhv olduğunu müəyyən edin; müddəanı düzgün sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin; belə hallarda sizdən izahat tələb edilməyəcəkdir; əgər müddəanı səhv sayarsınızsa, müvafiq xananı X işarəsi ilə göstərin və ayrılmış yerdə düzgün izahı yazın.**

**Müddəanın səhv olduğu təqdirdə, verilmiş izaha düzgün termini/sözü uyğunlaşdırın yaxud verilmiş termini/sözü düzgün izah edin.**

**Nəzərə alın ki, verilmiş izahın müsbət forması mənfi forma ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmur.**

**Tapşırıq 26.**

**“Naduri” gürcü xalq mahnısı süfrə janrlı mahnıdır.**

**Tapşırıq 27.**

**Unison iki yaxud daha çox səslə və ya çalğı aləti tərəfindən, eyni yüksəklikli musiqili səsin eyni vaxtda ifasıdır.**

**Tapşırıq 28.**

**Kanonun hər bir zənguləsinin birinci sətrinə “Dzlispiri”(İrmos) deyilir, o digər sətrlərin ritmik-melodik modelini təşkil edir.**

**Tapşırıqlar 29 – 30.**

***Xronologiyanın müəyyən edilməsi***

**Təlimat. Sadalananları köhnədən ən yeniyə doğru xronoloji qaydada yerləşdirin və 1-dən 4-ə qədər rəqəmlərlə qeyd edin. Cavablar vərəqində verilmiş cədvəldə əlifbanın hərfinə müvafiq olaraq seçilmiş rəqəmi yazın.**

**Tapşırıq 29.**

**Musiqi cərəyanlarını xronoloji qaydada yerləşdirin:**

ა) Barokko

ბ) İmpressionizm

გ) Klassisizm

დ) Romantizm

**Tapşırıq 30.**

**Gürcü pianoçular onların həyat və fəaliyyət dövrü üzrə xronoloji qaydada yerləşdirin:**

ა) Aleksandr Korsantiya

ბ) Eliso Virsaladze

გ) Aloiz Mizandari

დ) Lekso Toradze